

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ *qapısı*

**Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 110 (23.021)

*12 iyun 2018-ci il, çərşənbə axşamı*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev iyunun 11-də Müdafiə Nazirliyinin Raket Qoşunlarının "N" saylı hərbi hissəsinin açılışında iştirak edib.

Müdafiə naziri Zakir Həsənov dövlətimizin başçısına raport verib.

Bildirilib ki, hərbi hissənin inşasına 2017-ci ilin mayında başlanılıb. Ümumi ərazisi 36 hektar olan hərbi hissədə qərargah binası, əsgər yeməkxanası və yataqxanası, idman və sıra düzülüş meydançaları, maşınlar üçün qaraj, nəzarət-buraxılış məntəqəsi, nəzarət qüllələri quraşdırılıb.

Hərbi hissənin qərargah binası müasir səviyyədə inşa olunub. Binada hərbçilər üçün bütün zəruri avadanlıqla təchiz edilən iş otaqları var. Bu cür müasir qərargah binalarının yaradılması hərbi potensialın artırılması, əsgər və zabitlərin xidmət şəraitlərinin yüksək səviyyədə təmin edilməsi istiqamətində dövlətimizin atdığı mühüm addımların ardıcıl olduğunu bir daha göstərir.

Dövlətimizin başçısı hərbi hissənin əsgər yataqxanasında yaradılan şəraitlə də tanış olub.

Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev raketlərin saxlanması və döyüş maşınlarına yüklənməsi anqarına və döyüş texnikası parkında hərbi texnikaya baxıb.



## Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri Naxçıvanda fermer təsərrüfatlarının fəaliyyət təcrübəsi ilə tanış olub



***Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri İnam Kərimov iyunun 9-da Naxçıvana səfəri çərçivəsində muxtar respublikada kənd təsərrüfatının müxtəlif sahələrində həyata keçirilən tədbirlərlə tanış olub, fermer təsərrüfatları ilə maraqlanıb.***

İnam Kərimov əvvəlcə "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinə gəlib. Məlumat verilib ki, cəmiyyət 2005-ci ilin yanvar ayında fəaliyyətə başlayıb. Ötən dövrdə cəmiyyətin muxtar respublikanın rayonlarında da bazaları yaradılaraq lazımi texnika və texnoloji avadanlıqlarla təchiz edilib. Bildirilib ki, fəaliyyətə başladığı dövrdən cəmiyyətə müxtəlif adda 2248 müasir texnika və texnoloji avadanlıq alınıb. Gətirilən avadanlıqların 1752-si lizinq yolu ilə torpaq mülkiyyətçilərinə satılıb. Nazirə cəmiyyətin ehtiyat hissələri anbarı, təmir sexləri, gübrə anbarları barədə də ətraflı məlumat verilib. O da qeyd olunub ki, cəmiyyətin mərkəzi və rayon bazalarında bitkiçilik və baytarlıq aptekləri də yaradılıb.

İnam Kərimov Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin "Kəhrəba" fermer təsərrüfatında da olub. Məlumat verilib ki, təsərrüfatın əkin sahəsində tütün, kartof, sarımsaq, taxıl, eyni zamanda digər tərəvəz və bostan bitkiləri əkilib. Əkin zamanı yerli və məhsuldar sortlardan istifadəyə önəm verilib. Yerli şəraitə uyğunlaşdırılmış bitki sortlarının muxtar respublikanın rayon və kəndlərində əkini üçün də yaxşı imkanların olduğu bildirilib.

Naxçıvan "Bərəkət Toxumçuluq Təsərrüfatı"nda olan kənd təsərrüfatı naziri onun fəaliyyəti ilə də maraqlanıb. Təsərrüfatın bazasındakı texnikaların iş prinsipi haqqında ətraflı məlumat verilib və bildirilib ki, "Bərəkət Toxumçuluq Təsərrüfatı" Məhdud Məsuliyyətli Cəmiyyəti bu gün məhsul istehsalçılarını keyfiyyətli və məhsuldarlığı yüksək olan toxumlarla təmin edir. Bunun üçün müasir texnika və texnoloji avadanlıqlar alınıb. Eyni zamanda cəmiyyətin Kəngərli rayonunda geniş əkin sahələri də mövcuddur.

Muxtar respublikaya səfəri zamanı nazir İnam Kərimov Babək rayonunda fəaliyyət göstərən "Bərəkət Damazlıq Təsərrüfatı"nda da olub. Bildirilib ki, geniş ərazisi olan təsərrüfat qapalı yem anbarı, avtomatik sağım, açıq havada yemləmə və qaramalın saxlanıldığı sahələrdən ibarətdir. Damazlıq təsərrüfatında hər biri gündəlik 20 litrə yaxın südvermə qabiliyyətinə malik holştеyn-friz, simmental və şvеs cinslərindən olan inəklər saxlanılır. Təsərrüfatın illik süd istehsalı 900 tondur. Yeni texnologiya hər inəkdən sağılan südün həcminin və keyfiyyət göstəricilərinin ayrı-ayrılıqda qeydiyyatının aparılmasına imkan verir. Diqqətə çatdırılıb ki, təsərrüfat muxtar respublikada qaramalın cins tərkibinin yaxşılaşdırılmasında mühüm rola malikdir. Burada süni mayalanma yolu ilə əldə olunan buzovlar muxtar respublikada fəaliyyət göstərən fermer təsərrüfatlarına satılır ki, bu da xaricdən cins mal-qaranın gətirilməsinə olan ehtiyacın aradan qaldırılmasına şərait yaradır.

**Xəbərlər şöbəsi**

*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın Test mərkəzində Naxçıvan Muxtar Respublikasının dövlət ümumi təhsil müəssisələrində çalışan müəllimlərin bilik və bacarıqlarının qiymətləndirilməsinin aparılması üçün test imtahanlarına iyun ayının 11-dən start verilib.*

## Müəllimlərin bilik və bacarıqlarının qiymətləndirilməsinin aparılması üçün test imtahanlarına başlanılıb



İmtahanlarda iştirak etmək üçün 414 nəfər sənəd təqdim edib. İştirakçılara ixtisas üzrə ümumi fənn proqramına uyğun 40, metodika və təlim strategiyaları üzrə 25, informasiya texnologiyaları üzrə 15 sual olmaqla, ümumilikdə, 80 sual təqdim edilir, sualları cavablandırmaq üçün iştirakçılara 120 dəqiqə vaxt verilir.

Test tapşırıqlarının ən azı 30 faizini (24 bal) düzgün cavablandırmış şəxslər bilik və bacarıqlarının qiymətləndirilməsi aparılan müəllimlər hesab olunurlar. Müəllimlər arasında dərs yükünün bölüşdürülməsi və onların karyera inkişafı zamanı qiymətləndirilmənin nəticələri nəzərə alınır. Qiymətləndirilməsi aparılan müəllimlərin aylıq əməkhaqqı həftəlik dərs yükünə müvafiq olaraq artırılır.

Test imtahanları elektron proqram təminatı vasitəsilə keçirilir. Bununla da, iştirakçılar sualları cavablandırarkən seçdikləri cavabları imtahan vaxtı ərzində dəyişmək, monitorda imtahanın vaxtını izləmək və elektron kalkulyatordan istifadə etmək imkanlarından yararlana bilirlər. Test imtahanında obyektivliyin və şəffaflığın tam təmin edilməsi məqsədilə imtahanların videoçəkilişi də aparılır. İmtahan bitdikdən dərhal sonra iştirakçılara cavab kartı və test imtahanının nəticəsinə dair arayış təqdim edilir. Test imtahanlarının nəticələri komissiyanın rəsmi internet səhifəsində *(www.dqmk.nmr.az)* yerləşdirilir.

Qeyd edək ki, imtahanlar iyunun 21-dək davam edəcəkdir.

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın mətbuat xidməti***

## Maarifləndirici tədbir keçirilib

Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun Sədərək rayon şöbəsi rayon Dövlət Sığorta Agentliyi ilə birlikdə Sədərək kəndində "Torpaq mülkiyyətçiləri tərəfindən ödənilən məcburi dövlət sosial sığorta haqlarının mahiyyəti və bu sahədə tətbiq olunan mütərəqqi üsullar" mövzusunda maarifləndirici tədbir keçirib. Tədbiri Sədərək Rayon İcra Hakimiyyəti başçısının müavini Yusif Seyidov açaraq tədbirin mahiyyəti haqqında məlumat verib.

Dövlət Sosial Müdafiə Fondunun Sədərək rayon şöbəsinin müdiri Nəsimi Rzayev kənd təsərrüfatına yararlı torpaqlardan istifadə edən mülkiyyətçilər tərəfindən ödənilən məcburi dövlət sosial sığorta haqlarının əhəmiyyəti və bu sahədə tətbiq olunan elektron xidmətlər haqqında danışıb. Bildirib ki, kənd təsərrüfatına yararlı torpaq sahəsi olan torpaq mülkiyyətçiləri şəxsən özləri sosial sığorta haqlarının düzgün hesablanması və ödənilməsində maraqlı olmalıdırlar. Kənd təsərrüfatına yararlı torpaq sahəsi olan torpaq mülkiyyətçiləri əmək qabiliyyətli ailə üzvlərinin hər biri üçün torpaqların ölkə üzrə müəyyən olunmuş məbləğ miqdarında məcburi dövlət sosial sığortahaqqı ödəməlidirlər. Qeyd edilib ki, muxtar respublikada məcburi dövlət sosial sığorta haqlarının ödənilməsində mütərəqqi üsullar tətbiq edilməkdədir. Ödəyicilər məcburi dövlət sosial sığorta haqlarını həm fondun internet səhifəsindən plastik bankomat kartları vasitəsi, həm banklarda nağd qaydada onlayn ödənilməsi, həm də yerli poçt şöbələri vasitəsilə ödəyə bilirlər.

Tədbirdə fondun Sədərək rayon şöbəsinin Gəlirlər sektorunun müdiri Sultan İmaməliyev sığorta-pensiya sistemi ilə bağlı qanunvericiliyin pozulmasına görə nəzərdə tutulmuş inzibati cərimələr, şöbənin Fərdi uçotun təşkili sektorunun müdiri Elçin Əhmədov mülkiyyətində kənd təsərrüfatına yararlı torpaq sahəsi olan torpaq mülkiyyətçilərinin fondun fərdi uçot sistemində qeydiyyata alınması və bu sahədə elektron xidmətlərin tətbiqi, Sədərək Rayon Dövlət Sığorta Agentliyinin əməkdaşı Cəfər Şükürov könüllü sığortalar, fərdi sığorta, fiziki şəxslərə məxsus olan əmlakın sığortası haqqında tədbir iştirakçılarına ətraflı məlumat veriblər.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti***

## Torpaq sahələrinin planaalma işləri keyfiyyətlə aparılır

"Naxçıvan Muxtar Respublikasında torpaq münasibətlərinin tənzimlənməsi sahəsində əlavə tədbirlər haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 2 aprel tarixli Fərmanının icrası ilə əlaqədar olaraq Şərur və Babək rayonlarında torpaq sahələrinin konturlarının çöl geodeziya ölçmə işləri aparılmaqla dəqiqləşdirilməsi və parametrlərin torpaqların elektron kadastr uçotu informasiya sisteminə daxil edilməsi davam etdirilir. Planaalma işləri Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin tabeliyində olan Dövlət Yer Quruluşu, Geodeziya və Xəritəçəkmə Layihə İnstitutunun mütəxəssisləri tərəfindən müasir geodeziya-ölçü avadanlıqlarından istifadə edilməklə yüksək dəqiqlik və keyfiyyətlə yerinə yetirilir.

May ayı ərzində Şərur rayonu üzrə Cəlilkənddə 64, Tənənəmdə 283, Danyeridə 488, Xələcdə 213, Arbatanda187, Babək rayonunun Zeynəddin kəndində 278 daşınmaz əmlak obyekti plana alınıb. Ümumilikdə, ay ərzində 1513, cari ilin əvvəlindən isə muxtar respublika üzrə 6593 daşınmaz əmlak obyektinin elektron kadastr məlumatları komitənin informasiya bazasına daxil edilib. Bununla da, plana alınaraq informasiya bazasına daxil edilən torpaq sahələrinin sayı 28 minə çatdırılıb.

Şahbuz rayonunun Kolanı, Nursu, Sələsüz və Gömür bələdiyyələrinin mövcud mülkiyyət növləri üzrə torpaq sahələrinin elektron torpaq kadastr xəritələri hazırlanıb. Kadastr xəritələrinin məlumatları ilə torpaq reyestrində saxlanılan məlumatların uyğunluğu yoxlanılmaqla aparılıb.

Hazırda yeni texnologiyalardan, müasir çölölçmə cihaz və avadanlıqlarından və aerokosmik çəkiliş materiallarından istifadə olunmaqla ölçü işləri başa çatmış yaşayış məntəqələrinin ərazilərində mülkiyyət növündən və təyinatından asılı olmayaraq, bütün torpaq sahələrinin ölçüləri, sərhədləri, konfiqurasiyası dəqiqləşdirilir, torpaqların növləri üzrə kəmiyyət və keyfiyyət göstəricilərində baş verən dəyişikliklər müəyyən edilir.

***Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

***Artıq bir neçə gündür, Şərur rayonunun Günnüt kəndinin ordumuz tərəfindən azad edilməsi ölkə mətbuatında gündəlik xəbərlərin ana mövzusuna çevrilib. Hər birimizin böyük sevinc hissi ilə bəhs etdiyimiz bu qələbə xəbərinin Ermənistanda gözlənilməz şok effekti yaratdığını elə qonşu ölkənin kütləvi informasiya vasitələrindən də görmək çətin deyil. Bəs Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin davam etdiyi 30 ilə yaxın bir dövrdə Günnüt kəndinin, eləcə də digər strateji ərazilərin nəzarət altına alınması mahiyyət etibarilə hansı gerçəklikləri özündə əks edirir? Məsələnin siyasi tərəflərinə varmaq fikrindən uzağam.***

# Qələbəmizin Günnüt salnaməsi

Ədalətin və məntiqin gözü ilə baxsaq, Azərbaycan bir müstəqil dövlət olaraq sahib olduğu bütövlüyünü heç kəslə bölüşmür və haqlı olaraq öz hüququnu bütün beynəlxalq normalara əsasən təmin edir.

Şərur rayonunun Günnüt kəndi 26 il bundan əvvəl – 1992-ci ildə işğal olunmuşdu. Digər işğal altında olan yaşayış məntəqələrimiz kimi, Günnüt kəndi də tamamilə dağıdılmış, vətəndaşlara məxsus evlər, məktəb binası, tibb məntəqəsi, kənd məscidi, hətta qəbiristanlıq belə, yerləyeksan edilmişdir. Son günlərdə isə Əlahiddə Ümumqoşun Ordunun həyata keçirdiyi peşəkar əməliyyat nəticəsində Günnüt kəndi daxil olmaqla, yaxınlıqdakı Qızılqaya və Qaraqaya dağlarında yeni mövqelər işğaldan azad olunmuşdur. Dərələyəz mahalının Arpa kəndində və Mehridərə vadisində düşmən fəaliyyəti nəzarət altına götürülmüş, ümumilikdə, 11 min hektara yaxın ərazi nəzarət altına alınmışdır. Bununla da, dəniz səviyyəsindən 1500-2000 metr yüksəkliklərdə yerləşən bu ərazilər ordumuzun birləşmələrinə düşmənin hərəkət edən və etməyən çoxsaylı obyektlərinə nəzarət etməyə imkan vermişdir. Ən önəmlisi isə Qızılqaya yüksəkliyinin ələ keçirilməsi ilə İrəvan-Yexeqnadzor-Gorus-Laçın-Xankəndi avtomobil yoluna ordumuzun nəzarəti tam təmin olunmuşdur.



Qeyd edək ki, erməni mətbuatı təmas xəttində Naxçıvan Əlahiddə Ümumqoşun Ordu birliklərinin fəallaşmasıyla bağlı informasiyalar yaymışdı. "Razm.info" saytı sözügedən yüksəkliklərin alınmasını xəbər vermişdi. Digər erməni "Facebook" sosial şəbəkə istifadəçisi isə mayın 30-da Azərbaycan hərbi birləşmələrinin Arpa kəndi yaxınlığında yeni mövqelər tutması haqqında görüntülər paylaşmışdı. Mövcud situasiyanı nəzarətdə saxlaya bilməyən Ermənistan Müdafiə Nazirliyi bu günlərdə açıqlama verərək bildirmişdir ki, bu ərazilər neytral ərazilərdir və azərbaycanlılar Günnüt kəndindəki dədə-baba qəbiristanlığını ziyarət etmək üçün, guya, onlara müraciət etmiş və sakinlərin bura gəlişi "erməni tərəfinin razılığı" ilə baş tutmuşdur. Əcəb "məntiq"dir. Əslində isə belə "məntiq" yalnız saxta və yalan genetikası üzərində formalaşaraq tarixdə özünü bu yöndə sübut etmiş erməni təxəyyülünün məhsulu ola bilər.

Ancaq onu qeyd etmək lazımdır ki, 2016-cı ilin aprel döyüşlərindən sonra ciddi fiziki və psixoloji zərbə alan erməni tərəfinin Naxçıvanla bağlı sərsəm iddiaları, muxtar respublikada baş verən yenilikləri maraqla izləməsi daha çox diqqət çəkirdi. Son iki il ərzində Naxçıvandakı Əlahiddə Ümumqoşun Ordunun arsenalının müasir texnikalarla təminatı, mütəmadi olaraq təlimlərə cəlb olunması, bu təlimlərdə yüksək peşəkarlıq nümayiş etdirməsi, ötən il Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi Günündə ilk milli hərbi hissənin yaradılmasının 25-ci ildönümü münasibətilə möhtəşəm hərbi parad keçirməsi, sözün əsl mənasında, düşmənlərimiz üçün isti havada soyuq duş effekti yaratmışdı.

Naxçıvanın təhlükəsizliyinin təmin olunmasında ordumuzun bütün imkanlardan istifadə etməsi, düşmən ərazisindəki istənilən obyekti nəzarət altına alması və lazım gələrsə, təhdidlərə sərt şəkildə cavab verməsi imkanları var. Ölkə başçısı cənab İlham Əliyevin dediyi kimi: ***"Naxçıvanın güclü müdafiə potensialı var və bu potensial istənilən əməliyyatı həyata keçirməyə imkan verir".*** Düşmən nəzərə almalı idi ki, Əlahiddə Ümumqoşun Ordunun bazasında dünyanın ən müasir silahları mövcuddur, əsgərlərimiz düşmən ölkənin əsgərlərindən fərqli olaraq silahlardan bacarıqla istifadə edir, eyni zamanda hər iki istiqamət üzrə döyüş hazırlığını mənimsəyərək müasir döyüş aparmaq bacarığına malikdir. Elə bunun nəticəsidir ki, milli ordumuzun əsgəri, şəhid Adil Tatarovun qisası qısa müddətdə, həm də artıqlaması ilə alındı.

Bu gün xalqımız Lələtəpə, Cocuq Mərcanlı zəfərindən sonra Günnüt qələbəsinin sevincini yaşayır. Naxçıvanda qazanılan bu qələbə Silahlı Qüvvələrimizin gücünü ortaya qoymaqla yanaşı, düşmənlərimizə həm də Azərbaycanın öz ərazi bütövlüyünün pozulması faktı ilə heç zaman barışmayacağı mesajını verir.

**Səbuhi HƏSƏNOV**

# Biz o yurda qayıdırıq



***Bu günlər hamımızın yaşadığımız sevinc hissləri 26 ildir ki, düşmən tapdağı altında olan 11 min hektar torpağımızın geri alınmasının ifadəsidir. Buna Şərur rayonu, onun Günnüt kəndi, doğma Naxçıvanımızla yanaşı, bütün Azərbaycan sevinir. Gec-tez belə olacağına əmin idik. Çünki ata-babalarımız "Torpaqdan pay olmaz", – deyiblər. Və bu müqəddəs sərvət də elə bizə onlardan qalan ən qiymətli mirasdır.***

Ordumuzun yeni uğuru barədə kütləvi informasiya vasitələrində, informasiya agentliklərinin rəsmi saytlarında kifayət qədər məlumat verilib. Ona görə də bu barədə geniş danışmağa ehtiyac duymur, qısaca olaraq onu bildirmək istəyirik ki, azad olunan kəndin 8 min hektardan artığı əkin üçün, xüsusilə dəmyə əkinçiliyi üçün yararlı ərazilərdir. Günnütü nəzarətdə saxlamağa imkan verən, dəniz səviyyəsindən 1683 metr hündürlükdə yerləşən Qızılqaya yüksəkliyinin ən böyük strateji əhəmiyyəti isə İrəvan-Yexeqnadzor-Gorus-Laçın-Xankəndi avtomobil yoluna ordumuza nəzarət etməyə imkan verməsidir. Ərazinin etibarlı müdafiəsi və təminatı məqsədilə quruculuq tədbirlərinə başlanılıb, 50 kilometr yeni yol çəkilib, 50 kilometrdən artıq yararsız yollar isə bərpa edilib. Strateji əhəmiyyətli Arpaçay Su Dəryaçasının taktiki cəhətdən etibarlı mühafizəsinin təşkili üçün həkim yüksəkliklərdə yeni müdafiə mövqeləri qurulub.

Söhbətimizin bu yerində artıq əbədiyyətə qovuşmuş əsgərlərimizi xatırlamamaq mümkün deyil. 1992-ci ildə Günnütün müdafiəsində "Əlibaba" ləqəbli Asəf Rəhimov və sonuncu əməliyyatda düşmən təxribatının qarşısını alarkən əsgər Adil Tatarov şəhidlik zirvəsinə ucalıblar. Ruhları şad, yerləri cənnətməkan olsun. Həmişə minnətdarlıqla xatırlanacaqlar. Çünki müqəddəs bir amal uğrunda şəhidlik zirvəsini fəth ediblər.

1992-ci ildən işğala məruz qalan yaşayış məntəqələrimizdən biri kimi erməni qəsbkarları Günnütü xarabazarlığa çeviriblər. Vandallıq o dərəcəyə çatıb ki, kəndin qəbiristanlığındakı qəbir daşları güllələnib, bəzi qəbirlər isə partladılıb. Ərazi düşmən əlinə keçdikdən sonra kənd sakinləri rayonun bir sıra yaşayış məntəqələrində, əsasən, Mahmudkənddə məskunlaşıblar. Ancaq ürəkləri doğma yurd yerində qalıb. O yurda qayıtmaq istəyi bir an da onları tərk etməyib. Belə bir günün olacağına inanıblar. Ötən dövrdə yeni nəsil meydana gəlsə də, kənd sakinləri hər günün, hər saatın fərqində olublar ki, bəs nə vaxt doğma yurda qayıdacağıq? Və may ayının 26-da o sevinci yaşadılar günnütlülər. O sevinci biz də yaşadıq. Bütün Naxçıvan, bütün Azərbaycan yaşadı.

Mahmudkənddə məskunlaşan, doğulduğu yurd yeri Günnüt olan rayon məscidinin axundu, təqaüdçü-müəllim Hacı Nəsib Novruzov deyir ki, həmin gün bütün günnütlülərin həyatına qızıl səhifə kimi yazılıb. İlk olaraq qəbiristanlığa üz tutduq. Burada uyuyan qohum-əqrəbalarımızın ruhuna "Qurani-Kərim"dən ayələr oxuduq. Sağ olsun dövlətimizi, ordumuzu, bu orduda ölümün gözünə dik baxaraq işğal olunmuş torpaqlarımızın alınmasında böyük işlər görürlər.

Onun dediklərindən: – Haqq dünyasına qovuşan valideynlərim Günnüt həsrəti ilə yatıb, Günnüt həsrəti ilə sübhü açırdılar. Tez-tez doğma kəndi yuxularında gördüklərini deyirdilər. İnanın, evimizdə 3-4 gündən bir o yuxuları eşitməyə öyrəşmişdik. O yuxular bizim üçün təskinlik idi.

Nəsib Novruzov onlara məxsus olan, üstü sökülüb dağılmış, qapı-pəncərələri çıxarılmış, divarları uçuq vəziyyətə düşən evlərinə girib. Sevinir ki, yenidən oraya qayıdacaqlar. Günnüt öz doğmalarını qoynuna alacaq, toy-büsat səsi o dağlarda eşidiləcək, həyat yenidən axarına düşəcək. Bunun üçün həmyerliləri adından dövlətimizə minnətdarlığını bildirir. İşğal altında olan torpaqlarımızın alınmasında ordumuza davamlı qələbələr arzulayır.



Mahir Osmanov da Günnütdə doğulub. Kəndin o dövrünü yaxşı xatırlayır. Deyir ki, suyu dişgöynədən bulaqları, təmiz havası Günnütdə heyvandarlığın, arıçılığın, meyvəçiliyin inkişafına imkan verirdi. Artıq o ağaclar quruyub, bulaqların suyu kəsilib. Ancaq kənd adamları bu itkiləri qısa müddətdə yerinə qaytaracaqlar. Bağ da salacaqlar, arıçılıqla da, heyvandarlıqla da məşğul olacaqlar. Günnüt əvvəlkindən də yaxşı olacaq. Buna kənd geri alınandan sonra görülən işlər də zəmanət verir. Şərur-Sədərək magistralının Maxta kəndi ərazisindən bu yaşayış məntəqəsinə ayrılan yolda başlanan quruculuq tədbirləri bizi saatbasaat, günbəgün əsirlikdən azad olmuş doğma yurd yerinə yaxınlaşdırır.

Fikrət Məmmədov vaxtilə Günnütdə, indi isə Mahmudkənddə arıçılıqla məşğul olan ali təhsilli mütəxəssisdir. Təbii ki, onun da sevincinin həddi-hüdudu yoxdur. Deyir ki, 26 ildə dünyaya göz açan uşaqlar ancaq bizim söhbətlərimizlə o kəndi tanıyırlar. Bundan sonra o uşaqlar da doğma Günnütü görəcək, bu yurd yerinin qorunub saxlanılmasında ordumuzun əsgərlərinin yaxın köməkçilərinə çevriləcəklər.

Tezliklə burada başlanılacaq tikinti-abadlıq, quruculuq işləri uzun illərin həsrətindən sonra öz doğma torpağımıza qovuşma sevincimizi ikiqat artıracaq, yurd nisgilini əridəcək, bu, şəhid analarımızın ən böyük təsəllisi olacaq. Tezliklə burada da yeni doğulan, yurd itkisi ağrı-acısından xəbərsiz məsum körpələrin qığıltıları, Vətən müqəddəsliyindən bəhs edən həzin ana laylaları, məktəb zəngi ilə bir yerə toplaşan övladlarımızın xoşbəxt, şaqraq gülüşləri, məscid minarəsindən ucalacaq azan və "Quran" səsləri, örüşlərimizə yayılan qoyun-quzu mələşməsi eşidiləcək, torpağın bərəkət rəmzi – sarı sünbülün və təndir çörəyinin ətri duyulacaq. Bir sözlə, bizim olub ordumuzun hünəri ilə yenidən bizə bəxş edilən halal torpağımız Günnütdə də Cocuq Mərcanlıdakı kimi yeni həyat başlanacaq. Bu yurdda böyüyən gələcək nəsil qəhrəman ata-babalarımızın əmanəti olan Vətən torpağını daha böyük məğrurluq və şücaətlə qoruyacaq!

**Muxtar MƏMMƏDOV**
**Elman MƏMMƏDOV**

## Qarnizon xəbərləri

Döyüş hazırlığı planına uyğun olaraq Əlahiddə Ümumqoşun Ordunun aviasiya hərbi hissəsində təlim-məşq uçuşları keçirilib. Uçuş hazırlığının müxtəlif növləri üzrə keçirilən təlimdə əsas məqsəd heyətin vərdiş və bacarıqlarının təkmilləşdirilməsi və inkişaf etdirilməsi olub. Təlim-məşq uçuşlarında qarşıya qoyulan məqsədə nail olunub.



* * *

Hazırlıq planına uyğun olaraq Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Mülki Müdafiə Alayında praktik məşğələlər keçirilib. Şəxsi heyətin mənəvi-psixoloji, fiziki və döyüş hazırlığının yüksək səviyyədə saxlanılması məqsədilə sinif şəraitində nəzəri cəhətdən keçilən dərslər praktik məşğələlərdə daha da təkmilləşdirilib. Məşğələlər zamanı xilasedici dalğıclar qrupunun dalğıc avadanlıqlarından istifadəsi və xilasedici qayıqların taktiki-texniki göstəriciləri üzrə bilikləri daha da artırılıb.

Fövqəladə hadisə baş vermiş ərazidə kəşfiyyat işləri aparılıb, zərərçəkənlərin yerləri və dağıntının miqyası müəyyənləşdirilib, uçqunlar altında qalmış zərərçəkənlər xilas edilərək ilk tibbi yardım göstərilib.

Xilasedicilərin fiziki hazırlıqlarının artırılması məqsədilə mülki müdafiə qoşunlarının manevr zolağı dəf edilib, pirotexniki heyət minalanmış sahələrdən keçidlər açaraq partlamayan minaları zərərsizləşdirib.



Xüsusi Riskli Xilasetmə Xidmətinin şəxsi heyəti yüksək dağlıq ərazilərdə və hündürmərtəbəli binalarda xilasetmə işlərinin aparılmasını və zərərçəkmişlərin təxliyəsini praktik icra edib.

Müasir yanğınsöndürmə avtomobillərinin taktiki-texniki imkanları və yanğınsöndürmə avadanlıqları üzrə şəxsi heyətin bilikləri təkmilləşdirilib.

* * *

Həftə ərzində döyüş və ictimai-siyasi hazırlıqda əldə etdikləri yüksək nəticələrə görə nümunəvi xidməti ilə seçilən əsgərlərimiz hərbi hissə komandanlığı tərəfindən intizam qaydasında həvəsləndirilərək fəxri fərmanla təltif olunublar. Həmin əsgərlərin tarixi yerlərə və muzeylərə gəzintiləri də təşkil olunub. Gəzinti çərçivəsində əsgərlər Dövlət Bayrağı Muzeyini ziyarət edib, burada sərgilənən eksponatlarla yaxından tanış olublar.

* * *

Naxçıvan Qarnizonu tam orta məktəbində şagird elmi cəmiyyətinin növbəti konfransı keçirilib. Konfransda Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin nümayəndələri, ali təhsil müəssisələrinin professor-müəllim heyəti iştirak edib. Cəmiyyətin hər tədris ilinin sonunda keçirilən konfransında bu dəfə 9 şagird müxtəlif fənlər üzrə elmi məruzə üzərində işlərini yekunlaşdıraraq müzakirəyə təqdim edib.

Müzakirələrdə şagirdlərin video-slaydlar vasitəsilə elmi məruzələri dinlənilib.

**Nəriman NƏCƏFOV**




Gənclər Paytaxtı Naxçıvan – 2018

# Müasir gənclik

***Azərbaycanda dövlət siyasətinin bütün istiqamətləri uğurla inkişaf etdirilir. Yeni inkişaf yolları, müasir zamanın nəbzini tuta bilən və gələcəyə hesablanan addımlar ölkəmizi regionda lider dövlətə çevirməklə yanaşı, bəzi sahələrdə dünyanın iqtisadi cəhətdən qüdrətli ölkələri ilə rəqabət aparmaq imkanı da qazandırır. Azərbaycan bir sıra sosial və iqtisadi layihələrdə hətta uğurlu nümunə etalonuna çevrilib.***

Ölkəmizdə bu istiqamətlərdən biri kimi həyata keçirilən gənclər siyasəti yeni mərhələni təşkil edir. Azərbaycanda gənclərə yaradılan şərait ona əsas verir ki, hər bir gənc vətənpərvər və sağlam düşüncədə özünü inkişaf etdirsin.

Gənclik böyük qüvvədir. Tarixin bütün dövrlərində gənclər ölkənin ictimai-siyasi həyatında fəal iştirak ediblər. Bugünkü müasir dünyada həyatımızın ayrılmaz tərkib hissəsi olan yeni texnologiyaların kəşfi, gənclərimizin ondan müxtəlif sahələrdə uğurla istifadəsi onu göstərir ki, savadlı, zehinli, dünyagörüşlü bir nəsil yetişməkdədir. Bilikli gənc nəslin formalaşdırılması üçün güclü lider və güclü ölkənin olması ən böyük şərtdir.

Dövlətin həyata keçirdiyi gənclər siyasəti Naxçıvan Muxtar Respublikasında özünü müsbət yöndə inkişaf etdirməkdədir. Son illər gənclərin muxtar respublikanın ictimai-siyasi, iqtisadi-mədəni həyatında fəal iştirakı, sosial problemlərinin həll edilməsi, gənclər siyasətinin bütün istiqamətləri üzrə müvafiq dövlət proqramlarının tətbiqi və həyata keçirilməsi, gənc istedadlara dövlət qayğısının artırılması, elm, təhsil, iqtisadiyyat, mədəniyyət, dövlət idarəçiliyi və digər sahələrdə gənclərin irəli çəkilməsi və xidmətlərinin qiymətləndirilməsi, bütövlükdə, dövlət gənclər siyasəti istiqamətində atılan mühüm addımlardır.

Bəli, bu gün inamla deyə bilərik ki, bizim güclü liderimiz, güclü ölkəmiz, Vətənimiz, yetişməkdə olan sağlam və güclü gəncliyimiz var.

Naxçıvan şəhəri 2018-ci il üçün İslam ölkələrinin Mədəniyyət Paytaxtı və Azərbaycanın Gənclər Paytaxtı seçilib. Əlbəttə, bu, hər bir gəncin həyatında görmək istədiyi əlamətdar hadisədir, bu hadisənin iştirakçısı olmaq isə qürurvericidir. Gənclərin son dövrlərdə keçirilən tədbirlərdə yaxından iştirak etmələri ondan xəbər verir ki, bu gün muxtar respublikamızda onların ictimai həyatda fəal iştirakı dövlət gənclər siyasətinin tərkib hissəsidir. Eyni zamanda muxtar respublikamızda keçirilən mədəni-kütləvi tədbirlərdə gənclərin könüllülük prinsipi əsasında iştirakı onu göstərir ki, gənclərin sərbəst fəaliyyəti, liderlik və özünü ifadə etmə prinsipi əsasında gələcək karyeraları üçün ən yaxşı imkanlar yaradılıb.

Hazırda muxtar respublika əhalisinin 134 min nəfərdən çoxunu, yəni 31 faizini 14-29 yaşlı gənclər təşkil edir. Onların sağlamlığının qorunması, yüksək səviyyəli təhsilə yiyələnmələri məqsədilə səhiyyə müəssisələri, ümumtəhsil və musiqi məktəbləri istifadəyə verilib. Bununla yanaşı, muxtar respublikada 12 idman federasiyası fəaliyyət göstərir və bu da gənclərin asudə vaxtlarının səmərəli təşkili, sağlamlıqlarının qorunması baxımından xüsusi əhəmiyyət kəsb edir.

Gənclər muxtar respublikamızda dövlət siyasətinin mühüm hissəsini əhatə edir. Onlar cəmiyyətin aparıcı qüvvəsi kimi qəbul olunmaqla yanaşı, həm də fikirləri, təklifləri dinlənilir və öyrənilir, buna uyğun olaraq addımlar atılır, daha doğrusu, bu sahədə praqmatik siyasət yürüdülür. Məqsədyönlü gənclər siyasətinin səbəbi isə çox sadədir: gənclər istənilən zaman böyük, yaradıcı və güc sahibi olduqlarından onların düzgün istiqamətləndirilməsi dövlətin gələcəyini qorumaq baxımından mühüm məsələdir. Gənc nəslin inkişaf səviyyəsi dövlətin, cəmiyyətin sosial-iqtisadi, həmçinin siyasi həyatının tərəqqi göstəricisinə çevrilir. Əminliklə deyə bilərik ki, bu gün muxtar respublikamızın gəncləri fəal sosial təbəqə kimi demokratikləşmə prosesində yaxından iştirak edir, idman, elm, mədəniyyət və iqtisadiyyat sahələrində böyük uğurlara imza atırlar.

Gənclərimizin hərtərəfli inkişafını, beynəlxalq aləmə inteqrasiyasını vacib məsələlərdən biri kimi görən ümummilli liderimiz Heydər Əliyev müstəqilliyimizin qorunub saxlanılmasında, əbədi olmasında gənc nəslin üzərinə daha böyük məsuliyyət düşdüyünü bildirərək deyirdi: ***"Mənim üçün ən əziz nemət Azərbaycan uşaqlarıdır, Azərbaycanın gəncləridir. Çünki Azərbaycan Prezidenti kimi mən bu gün haqqında yox, Azərbaycanın böyük gələcəyi haqqında düşünürəm. Azərbaycanın gələcəyi də Azərbaycanın gənclərindən və uşaqlarından asılıdır".***

Bugünkü gənclik tərəqqi yolundadır, tərəqqi isə insan varlığının formasıdır. Gənclər tərəqqini inkişafa çevirməli, bu yolda güclü liderimizin ətrafında birləşərək ölkəmizi tərəqqidən inkişafa doğru aparmalıyıq.

Gəncliyə göstərilən diqqət və qayğının nəticəsidir ki, hərtərəfli biliyə, məsuliyyət hissinə, geniş dünyagörüşünə, xalqımızın milli, mədəni dəyərlərinə yiyələnən, Vətənini sevən, qoruyan, onun şərəfini uca tutan sağlam nəsil yetişməkdədir. Bu gün Naxçıvan Muxtar Respublikasında gənclər milli-mənəvi dəyərlərimizə hörmət ruhunda tərbiyə olunur, yeni ideyaların təşəbbüskarı və dövlət idarəçiliyində aparıcı qüvvə kimi formalaşır, müxtəlif sahələrdə böyük nailiyyətlər əldə edirlər. Ən əsası isə muxtar respublika gəncləri dövlətçilik ənənələrini daim uca tutur, ulu öndər Heydər Əliyevin siyasi xəttinə sədaqət ruhunda böyüyürlər. Unutmamalıyıq ki, Azərbaycan gəncliyi Azərbaycanın gələcəyidir.

**Azad CABBAROV**
**Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin sədri**

## Aztəminatlı ailələrin özünüməşğulluğu ilə bağlı tədbir keçirilib



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrasına uyğun olaraq ailə əməyinə əsaslanan fərdi təsərrüfatların sayı gündəngünə artır. Onlara göstərilən dəstəyin davamı olaraq Şərur, Babək, Ordubad, Culfa və Sədərək rayonları üzrə, ümumilikdə, daha 18 aztəminatlı ailə müəyyənləşdirilib. Həmin ailələrdən 17-nə yanında balası olan iribuynuzlu mal-qara, 1-nə isə yanında balası olan 10 baş xırdabuynuzlu heyvan verilib. Qeyd edək ki, iribuynuzlu mal-qaranın balaları süni mayalanma nəticəsində doğulanlardır.

Bununla əlaqədar keçirilən tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi naziri Cavid Səfərov muxtar respublikada aztəminatlı ailələrə göstərilən dövlət qayğısı, onların məşğulluğunun təmin olunması istiqamətində həyata keçirilən tədbirlər barədə danışıb. Sonra aztəminatlı ailə təmsilçilərinə verilən mal-qara ilə bağlı sənədlər təqdim olunub.

Şərur rayon Dəmirçi kənd sakini Ramazan Tənifəyev göstərilən qayğıya görə minnətdarlığını bildirib, ailə təsərrüfatından səmərəli yararlanacaqlarını diqqətə çatdırıb.

Qeyd edək ki, ötən dövr ərzində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığına əsasən 102 aztəminatlı ailənin özünüməşğulluğunun təmin edilməsi üçün müvafiq köməklik göstərilib.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## May ayında səhiyyə xidmətinin əhatə dairəsi genişlənib

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi əhalinin sağlamlığının qorunması və tibbi xidmətin səviyyəsinin yüksəldilməsi istiqamətində fəaliyyətini may ayında da davam etdirib, ixtisaslı kadrların hazırlanması, yoluxucu xəstəliklərin profilaktikası, ilkin səhiyyə xidmətinin yeni tələblərə uyğunlaşdırılması diqqət mərkəzində saxlanılıb.

Ümummilli lider Heydər Əliyevin 95 illik yubileyi ilə əlaqədar keçirilən tibbi aksiyalar əhalinin böyük rəğbətini qazanıb. Belə ki, Akademik Mirəsədulla Mirqasımov adına Respublika Kliniki Xəstəxanasının 24 nəfərdən ibarət professor-həkim heyəti baş həkim Telman İbadovun rəhbərliyi ilə Ordubadda 1276 nəfərin müayinə və müalicəsini həyata keçirib, 73 cərrahi əməliyyat aparıb.

Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin həkim briqadası tərəfindən Naxçıvan Muxtar Respublika Xəstəxanasında və Kəngərli rayonunda 213 nəfərdə müayinə, 15 nəfərdə katarakt əməliyyatı icra olunub.

Naxçıvan Muxtar Respublika Xəstəxanasının həkim briqadası Culfa rayonunda 34 nəfərdə müayinə, 28 nəfərdə müxtəlif əməliyyatlar aparıb ki, onlardan da ikisi laparoskopik üsulla həyata keçirilib. Xəstəxananın 27 nəfərdən ibarət 25 həkim və 2 nəfər orta tibb işçisi isə Məhəmməd Füzuli adına Ordubad rayon tam orta internat məktəbində 40 şagirdi ambulator, USM, 15 şagirdi isə laborator müayinələrdən keçirib.

May ayı ərzində həmin səhiyyə ocağının işçiləri qanvermə aksiyası keçirib, 30 donordan 15 litr qan tədarük edilib.

Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinin həkim briqadası Culfa rayon Mərkəzi Xəstəxanasında 40 nəfərdə müayinə, 33 nəfərdə müxtəlif əməliyyatlar aparıb.

Uşaq əhalisinin, xüsusən məktəbyaşlı uşaqların sağlamlığının qorunmasına, onların müayinə və müalicəsinə, dispanserizasiyasının təşkilinə xüsusi diqqət yetirilib. Təhsil müəssisələrində şagirdlər pediatr, oftalmoloq, stomatoloq, ortoped tərəfindən kütləvi müayinəsi başa çatıb. 32 min 219 nəfərdə müayinə aparılıb, 7 min 71 nəfər dispanser qeydiyyata alınıb.

Naxçıvan Muxtar Respublika Onkoloji Mərkəzinin həkimləri tərəfindən Naxçıvan şəhəri təhsil müəssisələri işçilərindən 242 nəfər qadında süd vəzinin profilaktik müayinəsi zamanı 16 nəfərdə patologiya aşkar olunaraq mərkəzə ətraflı müayinə və müalicəyə dəvət edilib.

Gigiyena və epidemiologiya mərkəzləri üçün dezinfeksiya, dezinseksiyaedicilər və malyariya əleyhinə larviol preparatları, ilan və əqrəb zəhəri əleyhinə zərdabların rayonlar üzrə bölgüsü aparılıb.

May ayında orta tibb işçilərinin sertifikasiya imtahanında 25 orta tibb işçisi iştirak edib, onlardan 9 nəfəri uğurlu nəticə qazanıb.

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi tərəfindən may ayı ərzində 26 nəfər Mərdəkan qəsəbəsində fəaliyyət göstərən Müharibə və Əmək Veteranları Pansionatına, 15 nəfər müxtəlif xəstəxanalara müalicəyə göndərilib.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

Yeni nəşrlər

## İki şəhid – iki zirvə



***Vətənimizin bütövlüyü, torpaqlarımızın qorunması uğrunda canlarından keçmiş şəhidlərimizin ömür yolu hər zaman gənclərimizə örnəkdir. Bu mənada, hər bir Azərbaycan vətəndaşı öz igid qəhrəmanlarını, şəhidlərimizi tanımalı, onların keçdiyi həyat yolunu nümunə götürməlidir.***

***Vətənimizin hər qarış torpağının müdafiəsi uğrunda canından, qanından keçərək şəhidlik zirvəsinə ucalmaq ən böyük şərəf və qürurdur. Bu zirvəyə ucalanların xatirəsini yaşatmaq isə hər birimizin vətəndaşlıq borcudur. Son illərdə qəhrəmanlıq və vətənpərvərlik mövzusunda daha çox kitabların nəşr olunması da bu amala xidmət edir.***

Şair-publisist, filologiya üzrə fəlsəfə doktoru Elxan Yurdoğlunun yaxın günlərdə işıq üzü görən "İki şəhid – iki zirvə" kitabı da gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunmasına hesablanmış nəşrlərdən biridir.

Kitabda ötən əsrin 90-cı illərində mənfur ermənilərin silahlı hücumları zamanı Sədərək döyüşlərində iştirak edərək şəhidlik zirvəsinə ucalan Kəngərli rayonunun Yurdçu kəndinin iki şəhid övladı – Müşfiq Səfərov və Kamran Məmmədovun həyat yoluna işıq salınıb.

Azərbaycan Vətən Müharibəsi Veteranları və Şəhid Ailələri Naxçıvan Muxtar Respublika Təşkilatının sədri Mirməcid Seyidovun redaktoru olduğu kitab "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində nəfis tərtibatla nəşr edilib. Kitabın üz qabığında Azərbaycan Rəssamlar Birliyinin üzvü, AMEA Naxçıvan Bölməsinin şöbə müdiri, rəssam Fizzə Quliyevanın çəkdiyi hər iki şəhidin portretinin yer aldığı kompozisiya öz əksini tapıb.

Kitabda Azərbaycanın Əməkdar incəsənət xadimi Abdulla Qurbaninin təəssüratları, şəhidlərin analarının, müəllimlərinin, sinif yoldaşlarının, silahdaşlarının xatirələri də özünə yer tapıb.

"Həyatda hər kəsin tutduğu bir ömür yolu var, onların tutduqları ömür yolu isə şəhidlik yoludur. Ulu yurdda dünyaya göz açıb, böyüyüb boya-başa çatan, iki mərd, vətənsevər igid oğulun yolu Sədərək rayonunun döyüş yüksəkliyində kəsişdi. Bu yolun yolçularının taleyi sanki bir yazılmışdı. Ömrün bahar çağında, elə bahar fəslinin gözəl güllü-çiçəkli vaxtında öz qızıl qanları ilə suladılar Vətən torpağında açan lalələri. Müşfiq və Kamran iki il ara ilə eyni döyüş nöqtəsində, eyni ayda şəhidlik zirvəsinə ucaldılar", – deyən müəllif kitabda şəhidlərin doğulduğu Yurdçu kəndindən də söhbət açır. Həmçinin hər iki şəhidin xəyali düşüncələri bildirilir, Vətən uğrunda şəhid olmağın ali məqamı qeyd olunur.

Kitabda hər iki şəhidin müxtəlif illərdə çəkilən fotoları yer alıb, onlar haqqında yazılmış şeirlər də kitaba daxil edilib.

"İki şəhid – iki zirvə" kitabını vərəqlədikcə 19 il ömür sürmüş, şəhidlikləri ilə ürəklərdə özlərinə ölməzlik abidəsi ucaldan iki gəncin şərəfli ömür yoluna nəzər saldıqca Vətən üçün canından keçən gənclərimizin şərəfli döyüş yolları göz önünə gəlir.

Ötən günlərdə Kəngərli rayonunun Yurdçu Kənd Mərkəzində həmin kitabın təqdimatı olub. Tədbirdə çıxış edən Kəngərli Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin Yurdçu kənd filialının müdiri Samirə Məmmədova, rəssam Fizzə Quliyeva, Kəngərli, şəhidlərin döyüş yoldaşı Zaur Abdullayev, şəhid Müşfiq Səfərovun qardaşı Zahid Səfərov və digərləri qeyd edirlər ki, Müşfiq və Kamranın müdafiəsində iştirak etdiyi hərbi post və Şərurun Günnüt kəndi bu gün yüksək döyüş qabiliyyətinə malik olan Əlahiddə Ümumqoşun Ordunun igid əsgərlərinin nəzarətindədir. Burada üçrəngli Azərbaycan bayrağı qürurla dalğalanır və dalğalandıqca da şəhidlərimizin ruhu şad olur.

**Ramiyyə ƏKBƏROVA**

# Oxucu məktubları

Minnətdarlıq

## Su saflıq və həyat rəmzidir



*Hörmətli redaksiya!*

Son illər muxtar respublikada irriqasiya sistemləri qurularaq istifadəyə verilir. Müasir suvarma texnologiyalarına üstünlük verilməsi nəticəsində torpaqların su təminatı yaxşılaşdırılıb. Həyata keçirilən meliorasiya və su təsərrüfatı tədbirləri yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılmasına səbəb olur ki, bu da kənd təsərrüfatının inkişafına və əhalinin məşğulluğuna öz töhfəsini verir. Bütün bunlar, ümumilikdə, muxtar respublika iqtisadiyyatının inkişafına xidmət edir.

Su təsərrüfatı sahəsində qarşıda duran ən mühüm vəzifələrdən biri insanları sağlam və ekoloji cəhətdən təmiz içməli su ilə təmin etməkdir. Bu gün muxtar respublikada içməli su və kanalizasiya sisteminin yenidən qurulması istiqamətində kompleks tədbirlər görülür. Ötən ay dövlətimizin başçısı cənab İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində "Şərur şəhər və ətraf kəndlərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsinin birinci mərhələsinin açılışında iştirak etməsi rayon sakinlərinin böyük sevincinə səbəb oldu.

Bu layihə çərçivəsində Şərur şəhərinə, Mahmudkənd və Zeyvə kəndlərinin bir hissəsinə su şəbəkəsi, Şərur şəhərinə kanalizasiya şəbəkəsi çəkilib və ev birləşmələri aparılıb. Həyata keçirilən layihələrin nəticəsində sakinlər fasiləsiz olaraq ekoloji cəhətdən saf içməli su ilə təmin olunacaq. Öz ailəm və içməli su problemi həll olunmuş bütün şərurlular adından bizə göstərilən qayğıya, diqqətə görə dövlətimizə minnətdarlığımı bildirirəm.

**Vaqif QULUYEV**
*Şərur rayon sakini*

## Keyfiyyətli məhsul istehsalı başlıca amildir

Hörmətli redaksiya!

Bu məktubu sizə Naxçıvan şəhərindən yazıram. İlk olaraq deyim ki, doğma şəhərimizin gündən-günə daha da gözəlləşməsi bir sakin kimi məni çox sevindirir. Yaraşıqlı binalar, rahat yollar, gözəl parklar indi qədim Naxçıvanımıza müasir sima bəxş edib. Bu gün ölkəmizin digər bölgələrindən şəhərimizə üz tutan qohum-əqrəba, dost-tanış da bu möhtəşəmlik qarşısında heyranlığını gizlədə bilmir, cənnətməkan diyarımızdan ağızdolusu danışırlar. Gözlər önündə yaranan bu ecazkarlığın sehrinə düşməmək olmur.

Bu məktubda toxunacağım məsələlər hər bir muxtar respublika sakininin ürəyindən xəbər verəcək. Belə ki, son illərdə Naxçıvanımızda yeni emal və sənaye müəssisələrinin yaradılması ilə işsizlik problemi aradan götürülüb, hər kəs iş sahibi olub. Nəticədə, biz sakinlərin sosial rifahı da xeyli yüksəlib. Dövlətimiz tərəfindən yaradılan bu imkanlardan mən də bəhrələnmişəm. "Cahan Holdinq" Şirkətlər İttifaqının "Cahan Sənaye Kompleksi"ndə qurulan yeni plastik boru, profil və aksesuarların istehsalı müəssisəsində işə düzəlməyim tək mənim deyil, ailəmizin böyük sevincinə səbəb olub. İndi bu müəssisədə çalışaraq yüksək məvacib qazanır, ailəmin güngüzəranını yaxşılaşdırıram.



Onu da deyim ki, burada biz işçilər üçün gözəl iş şəraiti yaradılıb, pulsuz yemək, paltar və nəqliyyatla təmin olunmuşuq. Üstəlik, qayğılarımızla da maraqlanırlar.

Biz də yaradılan şəraitdən ruhlanaraq Ali Məclisin Sədri cənab Vasif Talıbovun müəssisəmizin açılışında verdiyi tapşırıqlara əməl etməyə, keyfiyyətli məhsul istehsalına xüsusi diqqət yetirməklə alıcıların etibarını qazanmağa, məhsullarımızın təkcə daxili bazarda deyil, xarici ölkələrdə də yüksək keyfiyyəti ilə şöhrət tapmasına çalışacağıq.

**Azər HÜSEYNƏLİYEV**
*Naxçıvan şəhəri*

## Uşaqlarımız hərtərəfli qayğı ilə əhatə olunub





14 yaşlı oğlum doğuş zamanı aldığı travmadan yaranan sol hemapatez xəstəliyindən əziyyət çəkir. Artıq dörd ildir ki, o, Naxçıvan Uşaq Bərpa Mərkəzində müalicə olunur, vəziyyəti günbəgün yaxşılaşır.

Mən çox sevinirəm ki, sağlamlıq imkanları məhdud olan uşaqların tibbi reabilitasiyalarının təmin olunmasında mühüm rol oynayan mərkəzdə anadangəlmə və ya sonradan müəyyən səbəblərdən sağlamlıqlarını qismən itirən uşaqların muxtar respublikadan kənara getmədən tamamilə dövlət vəsaiti hesabına müayinə və müalicə olunması üçün hər cür şərait var.

Onu da qeyd edim ki, mərkəzdə müalicə olunan uşaqların asudə vaxtlarının səmərəli keçirilməsi, əmək terapiyasına cəlb edilməsi, onlarda aşağı və yuxarı ətraf əzələlərin inkişaf etdirilməsi, zehni inkişaflarının yaxşılaşdırılması, sərbəst şəkildə özünəqulluq vərdişlərinin aşılanması məqsədilə tədris otağı var. Burada yeni avadanlıqlarla təchiz edilmiş art-terapiya otağı da fəaliyyət göstərir. Uşaqların yay tətilini səmərəli keçirmələri üçün onların Naxçıvan şəhərindəki muzeylərə gəzintiləri təşkil olunur, filmlər nümayiş etdirilir.

Qeyd edilənlərlə yanaşı, mərkəzdə müalicə kursu qəbul edən uşaqlarla birlikdə mənim övladım da Ağbulaq İstirahət Mərkəzində istirahət edib. Bu onların sağlamlığının bərpa edilməsinə yaxşı təsir göstərir.

Yaxın günlərdə Uşaq Bərpa Mərkəzinə yeni tibbi avadanlıqların alınması, sağlamlıq imkanları məhdud uşaqlar üçün uyğunlaşdırılmış əyləncəli oyun sahəsinin istifadəyə verilməsi bütün valideynlər kimi məni də çox sevindirdi. Attraksionların yerləşdiyi ərazidə uşaqlarımızın mədəni istirahət etməsi, əylənib ağrı-acılarını müvəqqəti də olsa, unutmaları biz valideynlərin də dərdini azaldır. Burada müalicəvi bitki vannalarının da tətbiqi lap ürəyimizcə oldu. Bütün bunlar dövlətimizin öz insanlarına olan qayğısıdır. Mən Uşaq Bərpa Mərkəzində müalicə olunaraq sağlamlıqlarına qovuşan uşaqların valideynləri adından dövlətimizə, eləcə də bizimlə birgə övladlarımızın hər qayğısını çəkib müalicəsi ilə məşğul olan mərkəzin kollektivinə minnətdarlığımı bildirirəm.

**Nazirə RAMAZANOVA**
*Şərur rayonu, Mahmudkənd sakini*

## Dünyanın ən böyük neməti olan cansağlığına qovuşduğum üçün minnətdaram

Mən Babək rayonunun Yuxarı Uzunoba kəndində yaşayıram. Dərin minnətdarlıq duyğusu ilə bildirmək istəyirəm ki, müstəqil Azərbaycanda, onun ayrılmaz hissəsi olan Naxçıvanda bütün sahələrlə yanaşı, səhiyyənin ən müasir standartlar səviyyəsində inkişafı, insanların sağlamlığının hərtərəfli şəkildə qorunması da daim diqqət mərkəzindədir. Diyarımızın səhiyyə ocaqları tamamilə yenidən qurulub, ən müasir tibbi avadanlıq, cihaz və aparatlarla, yüksəkixtisaslı mütəxəssislərlə təmin olunub. Bir vaxtlar hətta adi müayinə və müalicə imkanlarının məhdud olduğu Naxçıvanın səhiyyə müəssisələrində indi ən çətin cərrahiyyə əməliyyatlarının uğurla aparılması adi hala çevrilib. Artıq ən ağır əməliyyatlar üçün belə, xarici dövlətlərə və ya paytaxt Bakı şəhərinə getməyə ehtiyac qalmayıb.

Mən neçə illərdir ki, öddaşı xəstəliyindən əziyyət çəkirdim. Yaxın günlərdə səhhətim kəskin şəkildə pisləşdi. Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinin həkim-cərrahı Abasət Hüseynəliyevin xəstəxanada apardığı uğurlu əməliyyat nəticəsində sağlamlığıma qovuşdum. Əməliyyatdan sonrakı dövrdə mənə xəstəxanada mükəmməl tibbi xidmət göstərildi. Artıq ağrı-acım arxada qalıb, səhhətim tam normaldır.

Naxçıvan Diaqnostika-Müalicə Mərkəzi yaradıldığı gündən bu günə kimi mərkəzin həkimləri mənim kimi çox xəstələrə şəfa bəxş ediblər. Dünyanın ən böyük neməti olan cansağlığına təkrar qovuşduğum üçün mərkəzin həkim-cərrahlarına, xalqımızın sağlamlığı qayğısına qalıb müasir tibbi avadanlıqlarla zəngin belə səhiyyə ocaqları yaradanlara minnətdarlığımı bildirirəm.

**Elmira ABDULLAYEVA**
*Babək rayonu, Yuxarı Uzunoba kəndi*

## Sabah "Heydər Əliyev kuboku" turnirinə start veriləcək




Bu ay Naxçıvan Muxtar Respublikasında "Heydər Əliyev kuboku" uğrunda növbəti turnir keçiriləcək.

Artıq 3-cü ildir ki, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Naxçıvan Muxtar Respublikası Futbol Federasiyası və Peşəkar Futbol Liqası tərəfindən keçirilən yarışın açılış və bağlanış mərasimləri xüsusi günə təsadüf edəcək.

Belə ki, həmin tədbirlər 15 İyun – Milli Qurtuluş Gününə təyin edilib. Bu isə o deməkdir ki, həmin gün Naxçıvanda əsl bayram əhval-ruhiyyəsi olacaq. Açılış mərasimində tanınmış müğənnilər Elton Hüseynəliyev və Əli Pormehr iştirak edəcəklər. Açılış mərasimində, eyni zamanda könüllülərin müxtəlif idman növlərindən ibarət hazırladıqları səhnələr nümayiş olunacaq.

Məlumat üçün bildirək ki, turnirdə yerli "Araz-Naxçıvan"la yanaşı, MOİK, "Zaqatala" və "Şüvəlan" klubları da iştirak edəcəklər. Komandalar artıq bu gün Naxçıvana gəliblər. Oyunlara isə sabah start veriləcək. Reqlamentə əsasən üç gün davam edəcək turnirdə gün ərzində iki görüş keçiriləcəkdir.

*Naxçıvan Muxtar Respublikası Yüngül Atletika Federasiyasının yetirmələri Bakı şəhərində keçirilən Azərbaycan birinciliyində mübarizə aparıblar.*

## Atletlərimizdən uğurlu nəticə



Həmin tədbirdə Yüngül Atletika Federasiyasının 12 idmançısı böyük uğura imza atıb.

Qızlardan ibarət komandamızın üzvləri Tamella Qurbanova, Telli Abbasova, Xatun Oruclu və İlkanə Babayeva 4x100 metr estafet yarışında ikinci yerə layiq görülüblər. Qızların fərdi yarışında isə Xatun Oruclu 1500 metr məsafədə finiş xəttinə hamıdan öncə çatıb. O həmçinin 800 metr məsafədə ikinci, digər idmançılarımızdan İlkanə Babayeva 800, Sevgi Məmmədli isə 1500 metr məsafələrdə üçüncü olublar.

Oğlanlar arasında fərdi olaraq Səfər Tağıyev 1500 metr məsafədə ikinci, 3000 metr məsafədə isə üçüncü yerə çıxıb.

Sonda qalib idmançılarımız təşkilatçılar tərəfindən diplom və medallarla təltif olunublar.

✍ **Ceyhun MƏMMƏDOV**


## "Xidmət" Açıq Tipli Səhmdar Cəmiyyəti səhmdarlarının nəzərinə

Naxçıvan şəhəri, Xətai küçəsi 6-da yerləşən "Xidmət" Açıq Tipli Səhmdar Cəmiyyətinin inzibati binasında 6 iyul 2018-ci il tarixdə, saat $10^{00}$-da səhmdarların ümumi yığıncağı keçiriləcəkdir. Yığıncağın gündəliyində aşağıdakı məsələlər durur:

1. Səhmdarların ümumi yığıncağının reqlamentinin təsdiqi
2. Cəmiyyətin 2017-ci ildə maliyyə-təsərrüfat fəaliyyətinə dair idarə heyətinin sədrinin hesabatı
3. 2018-ci ildə cəmiyyətin fəaliyyət proqramına baxılması
4. Sair məsələlər.



ŞƏRQ qapısı

Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Mətanət Məmmədova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1490. Sifariş № 434